YENİ AZƏRBAYCAN



# YAP Səbail rayon təşkilatı rayon şurasının və idarə heyətinin iclası keçirilib




Yanvarın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının rayon şurasının və idarə heyətinin geniş tərkibdə iclası keçirilib. İclasda ötən il YAP Səbail rayon təşkilatı tərəfindən görülən işlər müzakirə olunub və 2020-ci il üçün iş planı təsdiqlənib.

İclasda çıxış edən YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev gündəlikdə duran məsələlər haqqında məlumat verib.

2019-cu ilin ölkəmiz üçün uğurlu olduğunu diqqətə çatdıran Ş.Hacıyev ötən ilin Azərbaycan xalqının tarixinə islahatlar ili kimi yazıldığını bildirib. O, Prezident İlham Əliyevin ilin yekunları ilə bağlı müşavirədə çıxışına toxunaraq deyib: **"Azərbaycan müstəqil siyasət yürütməklə dayanıqlı inkişaf yolunda inamla irəliləyir. Ötən il ölkəmiz üçün çox uğurlu olub. Sosial layihə çərçivəsində insanların rifah halı yaxşılaşıb. Eyni zamanda dərin, köklü islahatlar həyata keçirilib".**

Qeyd edib ki, ölkəmizdə yenilənmə, gəncləşmə prosesi hər bir vətəndaşın ürəyincədir və xalqımız tərəfindən dəstəklənir. Prezident İlham Əliyevin Sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan olunması dövlətin gənclər siyasətinin parlaq təzahürüdür.

Ötən ilin Yeni Azərbaycan Partiyası üçün də uğurlu olduğunu deyən Ş.Hacıyev bildirib ki, YAP Səbail rayon təşkilatının sıraları daha da genişlənib və partiyanın yeni üzvləri arasında gənclər, qadınlar üstünlük təşkil edir.

Ötən ilin yekunları ilə bağlı iclasda həmçinin fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar YAP Səbail rayon təşkilatında təbliğat-təşviqat kampaniyasının aparılması, seçicilərlə görüşlər, qərargahın fəaliyyəti ilə bağlı müzakirə aparılıb, 20 Yanvar faciəsinin ildönümünə hazırlıqlar barədə məlumat verilib.

Sonra Yeni Azərbaycan Partiyasının yaradıcısı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ilə əlaqədar tədbirlər planı müzakirə edilərək təsdiq olunub.

Daha sonra YAP Səbail rayon təşkilatının Qadınlar Şurasının, Gənclər Birliyinin, Nəzarət-təftiş komissiyasının 2020-ci il üçün iş planları təsdiq edilib.

**MÜŞFİQƏ**

# "Könüllülər ili" çərçivəsində görüləcək işlər ölkəmizdə könüllülük fəaliyyətinin inkişafında mühüm rol oynayacaq

*Ekspertlərin fikrincə, Azərbaycanda gənclər siyasəti sahəsində, xüsusilə könüllülük hərəkatının inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilir*



***Kamran Abbasov:***
*2020-ci ilin "Könüllülər ili" elan olunması ölkəmizdə gənclərə göstərilən diqqət və qayğının bariz nümunəsidir*



***Fərid Musayev:***
*Ölkəmizdə həyata keçirilən dövlət siyasəti gənclərimizin vətənpərvər ruhda və sağlam inkişafını təmin edir*

2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan olunması həm könüllülük hərəkatına, həm də Azərbaycanda həyata keçirilən gənclər siyasətinə dəstək verilməsi kimi xarakterizə oluna bilər. Vurğulanmalıdır ki, ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayan gənclərimiz vətənpərvər, yüksək intellektli, milli-mənəvi dəyərlərə, dövlətə və Vətənə sadiq olmaqla yanaşı, hər zaman yüksək fəallıqları və təşəbbüskarlıqları ilə seçilirlər. Ölkə gəncliyi müxtəlif sahələrdə, o cümlədən qanunverici, icraedici və məhkəmə orqanlarında, eləcə də özəl sektorda uğurla fəaliyyət göstərir, gənclərin intellektual potensialından, kreativ ideyalarından, bilik, bacarıq və vərdişlərindən səmərəli istifadə olunur.

Azərbaycanda dövlət gənclər siyasətinin səmərəliliyini təmin edən mühüm amillərdən biri də könüllülük fəaliyyətinə xüsusi diqqət göstərilməsidir. Məlumat üçün qeyd edək ki, Azərbaycanda 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT-nin İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlayıb. 1998-2000-ci illərdə bu proqramın nəticəsində Azərbaycanda güclü könüllü komandası yaradılıb və könüllülük prinsiplərinin geniş auditoriyaya təbliği prosesi başlanıb. 2009-cu ildə isə Milli Məclisin "Könüllü fəaliyyət haqqında" qanun qəbul etməsi ölkəmizdə könüllülük fəaliyyətinin inkişafında mühüm rol oynayıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclər siyasəti sahəsində, xüsusilə könüllülük hərəkatının inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilir. Xüsusilə də, son zamanlar müxtəlif dövlət qurumlarına könüllülərin cəlb olunmasına başlanılması Azərbaycanda könüllülük hərəkatının inkişafına əlavə təkan verib. Məhz bunun nəticəsidir ki, 2020-ci il Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə "Könüllülər ili" elan edilib. Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən il dekabrın 5-də Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında bu məqamlara toxunaraq deyib: **"...Xalqımıza xas olan xüsusiyyətlər könüllülər hərəkatı ilə üst-üstə düşür. Artıq minlərlə, bəlkə də on minlərlə könüllümüz var. Mən onu da bildirməliyəm, nisbətən bu yaxınlarda göstəriş vermişdim ki, dövlət orqanlarında da könüllülər fəaliyyətə başlasın, oraya cəlb olunsunlar. Artıq nazirliklərdə, dövlət şirkətlərində könüllülər qrupları vardır. Özəl şirkətlər könüllüləri işə cəlb etməlidirlər. Çünki bu, həm onlara xeyir gətirəcək, həm ümumi işimizə töhfə verəcəkdir. Ona görə könüllülər qarşısında hesab edirəm ki, bütün imkanlar açıqdır".**

Məsələ ilə bağlı fikirlərini bölüşən Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatı Gənclər Birliyinin sədri Kamran Abbasov 2020-ci ilin "Könüllülər ili" elan olunmasını ölkəmizdə gənclərə göstərilən diqqət və qayğının bariz nümunəsi kimi dəyərləndirib. K.Abbasov bildirib ki, ölkə Prezidentinin müvafiq Sərəncamında da vurğulanır ki, könüllülük fəaliyyətinin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılıb, normativ hüquqi baza təkmilləşdirilib, dövlət dəstəyi mexanizmləri formalaşdırılıb. Qeyd edilib ki, könüllülük ölkəmizdə artıq ümummilli hərəkata çevrilib və hər bir bölgəmizdə və həyatın müxtəlif sahələrində yayılaraq cəmiyyətin bütün təbəqələrini əhatə edir.

K.Abbasov əlavə edib ki, özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında da gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən ibarətdir: **"Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. Ulu Öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin və Onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi, bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir. Bu manada, könüllülük hərəkatı da partiyamızın gənclərinin əsas fəaliyyət istiqamətlərindən biri kimi xarakterizə oluna bilər. Ölkəmizdə könüllülük institutunun formalaşmasında partiyamızın gənclərinin də mühüm xidməti olub. Bu gün istedadlı, cəmiyyətə və dövlətə yararlı olmaq istəyən gənclər məhz könüllülük fəaliyyəti ətrafında da birləşərək öz peşəkarlıqlarını və təcrübələrini artırırlar".**

YAP Xaçmaz rayon təşkilatı Gənclər Birliyinin sədri Fərid Musayev də Prezident İlham Əliyevin ötən il dekabrın 30-da "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında" Sərəncam imzalamasının gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək baxımından xüsusi önəm kəsb etdiyini diqqətə çatdırıb. F.Musayev bildirib ki, Azərbaycan gəncləri ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edirlər. Onun sözlərinə görə, bu gün dövlətçiliyə və milli maraqlara sadiq fəal gənclər Azərbaycanın inkişafına mühüm töhfələr verirlər: **"Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclər siyasəti sahəsində, xüsusilə könüllülük hərəkatının inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilir. 2020-ci ilin "Könüllülər ili" elan edilməsi gənclərimiz üçün yeni fürsətlər yaradıb. Artıq gənclərimiz bu ümummilli hərəkatın sıralarında bir sıra sahələrdə təcrübə qazanacaqlar. Könüllülük fəaliyyəti birmənalı şəkildə gənclərin inkişafına, yeni kadr potensialının formalaşmasına xidmət göstərir. Ümumiyyətlə, ölkəmizdə həyata keçirilən dövlət siyasəti gənclərimizin vətənpərvər ruhda və sağlam inkişafını təmin edir".**

**Pərviz SADAYOĞLU**

# UFAZ-da əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb





Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində (UFAZ) Total E&P Abşeron şirkəti - Strasburq Universiteti (Unistra) - UFAZ, Total E&P Abşeron şirkəti - Fransanın Azərbaycandakı səfirliyi, eyni zamanda, Paşa Bank ASC - Strasburq Universiteti - UFAZ arasında əməkdaşlığın inkişaf etdirilməsi çərçivəsində Anlaşma memorandumları imzalanıb.

Sənədləri ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Strasburq Universitetinin rektoru Mişel Deneken, Fransanın Azərbaycandakı səfiri Zakari Qros, Total E&P Abşeron şirkətinin prezidenti Regis Agut və PAŞA Bank ASC-nin İdarə Heyətinin sədri Taleh Kazımov imzalayıblar.

Məlumat üçün bildirək ki, Azərbaycan-Fransız Universiteti Azərbaycan və Fransa prezidentlərinin təşəbbüsü ilə yaradılan layihədir. UFAZ-da dörd ixtisas - geofizika mühəndisliyi, kimya mühəndisliyi, neft-qaz mühəndisliyi və kompüter elmləri ixtisasları üzrə tədris həyata keçirilir.

# Media nümayəndələri və valideynlər AzTU-da imtahan prosesini izləyiblər



Yanvarın 15-də Azərbaycan Texniki Universitetində (AzTU) qış imtahan sessiyasının gedişi ilə tanış olmaq üçün mediatur təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mətbuat Şurasının rəhbərliyi, Təhsil Nazirliyi və universitetin İctimai Şurasının üzvləri, valideynlər və KİV nümayəndələri auditoriyalarda imtahan prosesini izləyiblər. Onlar cavabların yoxlanılması haqqında məlumatlandırılıb.

Rektor Vilayət Vəliyev bildirib ki, universitetdə imtahanlar test üsulu, yazılı və şifahi formalarda aparılır. Bütün imtahanlar "Elektron universitet portalı" vasitəsilə nəzarətə götürülür. İmtahanların nəticələri dərhal həmin sistemdə qeydə alınır. Tələbə test imtahanlarının nəticələrini cavabları təsdiq etdikdən sonra kompüterin ekranından görür. Bir dəfəyə 250 tələbə kompüter vasitəsilə test imtahanını verə bilir. Yazılı imtahanlar da test imtahanları kimi ciddi nəzarətə götürülüb. Yazılar şifrələndikdən sonra yoxlanılır. Universitetdə imtahan sessiyasının gedişinə nəzarət etmək məqsədilə Münaqişə Komissiyası təşkil olunub. Komissiya bütün müraciətlərə baxır, araşdırır, qiymətləndirmədə şəffaflıq və operativliyi təmin edir.

Daha sonra valideynlərin və mətbuat nümayəndələrinin iştirakı ilə təşkil olunan görüşdə onları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, sessiya imtahanları fevralın 7-də başa çatacaq. İmtahanlarda hər hansı səbəbdən iştirak edə bilməyən tələbələr (magistrantlar) ərizə ilə müraciət edərək fevralın 15-dək həmin fənlərdən imtahan verə biləcəklər.

# Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatında treninq keçirilib





Dünən Yeni Azərbaycan Partiyası (YAP) Tərtər rayon təşkilatının qərargahında fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə əlaqədar YAP tərəfindən 95 saylı Tərtər Dairə Seçki Komissiyası, həmçinin məntəqə seçki komissiyaları üzrə təyin olunmuş müşahidəçilər və məşvərətçilər üçün treninq keçirilib.

Treninqdə YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov çıxış edərək bildirib ki, əvvəlki seçkilərdə olduğu kimi, bu seçkilərə də partiya, həmçinin Tərtər rayon təşkilatı tərəfindən ciddi hazırlıq işləri görülüb.

Qeyd olunub ki, dairə və məntəqələrə YAP tərəfindən təyin olunmuş müşahidəçilər və məşvərətçilər partiya üzvləri arasından seçilmiş fəal şəxslərdir.

Ramiz Şabanov seçki günü ərzində seçkinin şəffaflığının təmin olunması sahəsində müşahidəçilərin və məşvərətçilərin üzərlərinə düşən məsuliyyətdən və vəzifələrdən danışaraq əmin olduğunu bildirib ki, budəfəki parlament seçkilərində də Yeni Azərbaycan Partiyası qələbə qazanacaq.

# YAP Yevlax rayon təşkilatında partiya tərəfindən təyin edilən müşahidəçilər üçün treninq keçirilib




Yanvarın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Yevlax rayon təşkilatının iclas zalında 48 saylı Yevlax seçki dairəsi və 49 saylı Yevlax-Mingəçevir seçki dairəsi üzrə partiya tərəfindən təyin edilmiş müşahidəçilər üçün treninq keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Yevlax rayon təşkilatının Aparat rəhbəri Rafiq Əliyev fevralın 9-da ölkəmizdə növbəti parlament seçkilərinin keçiriləcəyini deyib. O bildirib ki, Yeni Azərbaycan Partiyası bundan əvvəlki bütün seçkilərdə olduğu kimi bu dəfə də seçkilərə ciddi şəkildə hazırlaşıb: **"Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq bütün lazımi addımlar atılıb, o cümlədən fevralın 9-da seçkinin gedişini izləmək üçün 48 saylı Yevlax Dairə Seçki Komissiyası və məntəqə seçki komissiyaları üzrə 32 nəfər, 49 saylı Yevlax-Mingəçevir Dairə Seçki Komissiyası və məntəqə seçki komissiyaları üzrə isə 27 nəfər müşahidəçi təyin edilib".**

Rafiq Əliyev deyib ki, seçki prosesini izləyəcək şəxslər öz hüquq və vəzifələrini tam bilməli, qanuna uyğun fəaliyyətlərini təmin etməlidirlər. Bu treninqin də əsas məqsədi müşahidəçilərə müvafiq məlumatların verilməsidir.

Sonra geniş məruzə ilə çıxış edən YAP Yevlax rayon təşkilatının baş məsləhətçisi Vidadi Qarayev müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı məlumat verib.

Treninq qarşılıqlı diskussiya və fikir mübadiləsi şəraitində davam edib.